

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 136 (21.546)

26 iyul 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Cari ilin əvvəlindən muxtar respublikada 95 yeni obyekt istifadəyə verilib



***Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə infrastrukturun yenilənməsi həyata keçirilən tikinti-quruculuq tədbirlərinin əsasını təşkil edir. Əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də bu sahədə atılan addımlar yeni infrastruktur obyektlərinin tikilməsinə və ya əsaslı şəkildə yenidən qurulmasına şərait yaradıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin əvvəlindən muxtar respublikada tikinti və ya əsaslı şəkildə təmirdən sonra, ümumilikdə, 95 obyekt, o cümlədən 1 peşə məktəbi, 1806 şagird yerlik 6 ümumtəhsil məktəbi, 6 səhiyyə obyekti, 7 inzibati bina, 15 mədəniyyət obyekti, 2 idman obyekti, 1 yaşayış binası, 20 istehsal və xidmət sahəsi, 37 digər infrastruktur obyektləri istifadəyə verilib. Hazırda iqtisadi və sosial sahələrdə 130 müxtəlif obyektin tikintisi və ya yenidən qurulması davam etdirilir. Eyni zamanda ötən dövrdə səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsini yaxşılaşdırmaq məqsədilə 6 kənd mərkəzi istifadəyə verilib, 10 kənd mərkəzinin inşası isə davam etdirilir.

Bununla yanaşı, muxtar respublikada əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Qeyd edək ki, 2015-ci ildə Naxçıvan şəhərdaxili içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərin içməli su və kanalizasiya şəbəkəsində işlər tamamlanıb, evlər su ilə təmin edilib. Komitənin məlumatına görə, hazırda Şərur, Babək, Ordubad, Kəngərli və Sədərək rayonlarında, Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Bulqan və Qaraxanbəyli kəndlərində içməli su və kanalizasiya şəbəkələrində işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı, kütləvi hal alması və gənclər arasında təbliği üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı kimi Culfa rayonunun Bənəniyar kəndində yeniyetmə və gənc futbolçuların bu növlə məşğul olmaları üçün kənd stadionu yenidən qurularaq onların istifadəsinə verilib.***

## Bənəniyar kəndinin stadionu yenidən qurulub



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev bildirib ki, muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonu da günü-gündən inkişaf edərək yeniləşir. Hər il kəndlərdə kompleks quruculuq işləri aparılır, yeni sosial obyektlər tikilir. Bənəniyar kəndində istifadəyə verilən stadion bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Şükür Babayev aparılan quruculuq tədbirlərinə görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov isə çıxışında vurğulayıb ki, bu gün muxtar respublikanın tək şəhər və rayonlarında yox, həmçinin kəndlərində də yeni idman obyektləri tikilərək gənclərin ixtiyarına verilir. Kənddəki stadionun yenidən qurulması istedadlı uşaqların üzə çıxarılmasına və onların gələcəkdə böyük uğurlar qazanmasına zəmin yaradacaq.

Azad Cabbarov Bənəniyar kənd stadionunun istifadəyə verilməsi münasibətilə kənd camaatını təbrik edib, onlara idmanımızın inkişafı sahəsindəki fəaliyyətlərində uğurlar arzulayıb.

Ramiz Quliyev kənd sakinləri adından minnətdarlıq edərək deyib: – Bənəniyarda stadionun yenidən qurulması kəndin simasını dəyişib, gənclərin rahatlığına xidmət edən müasir infrastruktur yaradılıb. Bu stadion sakinlərin böyük sevincinə səbəb olub. Artıq dağların əhatəsində yerləşən bu yaşayış məntəqəsində idmanla məşğul olmaq xeyli asanlaşıb.

Qeyd edək ki, müasir tələblərə cavab verən stadionun uzunluğu 86, eni 52 metrdir. Yararsız vəziyyətdə olan meydançaya xüsusi ot toxumu səpilib, yeni oyun qapıları qoyulub. Stadionun suvarılması üçün meydanın ərazisinə su xətti çəkilib. Oyunların rahat izlənməsi üçün stadionda oturacaqlar quraşdırılıb. Bunlarla yanaşı, stadionun ərazisinə müxtəlif tinglər əkilib.

## Naxçıvan məşğulluq göstəricilərinə görə ölkəmizin regionları arasında ilk yeri tutur

***Əhali gəlirlərinin artırılmasına yönəlik məşğulluq tədbirləri həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri sayılır. Naxçıvan Muxtar Respublikasında əhalinin daimi məşğulluğunun təmin olunması üzrə görülən bütün işlər də sosial-iqtisadi inkişaf istiqamətində qəbul olunmuş dövlət proqramlarının və digər mühüm tədbirlərin uğurlu icrası sayəsində mümkün olub.***



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumatda deyilir ki, cari ilin ilk 6 ayının yekunlarına əsasən, Naxçıvan Muxtar Respublikasında mülki sektorda 94 min nəfər stabil əməkhaqqı təminatı ilə işləməkdədir. Əhali məşğulluğuna dair məlumatların keyfiyyət göstəricisinə gəldikdə isə muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı məbləğinin 404 manat olduğu bildirilir. Qeyd edək ki, bu göstərici üzrə Naxçıvan Muxtar Respublikası paytaxt Bakı şəhərindən sonra ölkəmizin bütün regionları arasında ilk yeri tutur. Əgər muxtar respublika üzrə iqtisadi fəal əhalinin ümumi sayının 231 min 600 nəfər olduğunu nəzərə alsaq, bütün bunların əmək bazarının təkmilləşdirilməsi istiqamətində görülmüş işlərin məntiqi nəticəsi olduğunu görərik. Naxçıvanda kiçik və orta sahibkarlığın dəstəklənməsi, ixracyönümlü yerli istehsalın stimullaşdırılması ilə yanaşı, işaxtaran vətəndaşların məşğulluğunun təmin olunması üçün həyata keçirilən davamlı tədbirlər də burada özünü göstərir. Belə ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda muxtar respublikada işsiz statusunda qeydə alınmış heç bir vətəndaşın olmadığı bildirilir. Muxtar respublikada əməyin mühafizəsi və işçilərin əmək hüquqlarının təmin olunması da əhalinin məşğulluq imkanlarına müsbət təsir edir.

## Baş Dizə kəndində kompleks quruculuq işləri aparılır

***Ordubad rayonunun quruculuq xəritəsi ildən-ilə genişlənir. Quruculuq tədbirləri cari ildə də davam etdirilir. Belə yaşayış məntəqələrindən biri Baş Dizə kəndidir. Rayonun kiçik yaşayış məntəqələrindən biri olan Baş Dizədə aparılan kompleks quruculuq tədbirlərinə mart ayında start verilib.***

Burada kənd tam orta məktəbi, kənd və xidmət mərkəzləri üçün binalar inşa olunur. Quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Onlara hərtərəfli şərait yaradılıb.

Üç mərtəbədən ibarət olan məktəb binası 156 şagird yerlik nəzərdə tutulub. Təhsil ocağının yeni binasında geniş və işıqlı sinif otaqları, kitabxana, idman zalı, kompüter və elektron lövhəli siniflər, laboratoriya müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Kənd mərkəzi 2 mərtəbədən ibarətdir. Burada fəaliyyət göstərəcək müxtəlif dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılacaq.

Yeni xidmət mərkəzi də kənd sakinlərinə dövlətimizin növbəti qayğısıdır.

Hər 3 obyektdə tikinti işləri əsasən başa çatdırılıb. Hazırda suvaq çəkilir, daşüzləmə işləri görülür.

Obyektlərin inşası başa çatdırıldıqdan sonra ərazi abadlaşdırılacaq, yaşıllıq zolaqları, gülkarlıqlar salınacaq.

## Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edən xarici ölkə vətəndaşlarının sayı artır

***Bu ilin ilk yarısında Duzdağ Fizioterapiya Mərkəzinə "Duzdağ" oteli də daxil olmaqla, 3150 müraciət olub. Müraciət edənlərin 110 nəfərini xarici ölkə vətəndaşları təşkil edib. Burada müalicə alanlar, əsasən, Türkiyə, Rusiya, ABŞ, Qazaxıstan, Moldova, Ukrayna, İran vətəndaşları olub. Bu barədə qəzetimizə məlumatı mərkəzin baş həkimi Ruslan Süleymanov verib.***





Məlumatda o da bildirilib ki, sözügedən mərkəzə ötən il 4000-ə yaxın müraciət olub, müraciət edənlərin 228 nəfərini xarici ölkə vətəndaşları təşkil edib. Ötən il mərkəzdə 139 nəfər Rusiya, 42 nəfər Qazaxıstan, 23 nəfər Türkiyə, 7 nəfər Gürcüstan, 5 nəfər İran İslam Respublikası, 5 nəfər Ukrayna, 2 nəfər Latviya, 4 nəfər Kanada vətəndaşı müalicə alıb. Naxçıvan Muxtar Respublikasından isə mərkəzdə 461 nəfər müalicə kursu keçib. Bundan başqa, Azərbaycanın müxtəlif bölgələrindən olan xəstələr buraya müalicəyə gəliblər.

Qeyd edək ki, yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Burada istənilən adam müalicə ala bilər. Yalnız müalicə kursları fərqlidir. Uşaqlar 12-15, böyüklər isə 14-18 gün burada qalmaqla müalicə almış olurlar. Mərkəzdə ilin istənilən fəslində müalicə almaq olar. Səhiyyə ocağında speleoterapiya Ukraynanın Ujqorod xəstəxanasının metodik göstərişlərinə uyğun aparılır. Xəstələr əvvəlcə 2-3 gün xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra axşam saat $18^{00}$-dan səhər saat $8^{00}$-dək böyüklər 20-24 seans, uşaqlar isə 14-18 seans yeraltı şöbədə olurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma qeydə alınır.

**Xəbərlər şöbəsi**

# Dörd zavodun bir ünvanı

*Bir ay əvvəl Naxçıvana gələrkən Duzdağ yolundan doğma şəhərimizi, gözoxşayan, sayrışan ulduzları xatırladan elektrik lampalarının bərq vurduğu ecazkar bir mənzərəni seyr edərək, – mən bura gələndə gördüyüm zülmətə qərq olmuş, ümidi çıraq işığına qalmış Naxçıvan indi dünyanın ən gözəl şəhərlərinə bənzəyir. Bu, inanılmazdır. Gərək mən də ata yurdunda bu gözəlliyə yaraşan bir fərdi ev tikdirəm, – deyən, uzun illərdir, Avropada yaşayan, biznes fəaliyyəti ilə məşğul olan dostum Tahir Naxçıvanda olduğu iki gün ərzində vaxt tapıb fərdi yaşayış evlərinin tikintisi ilə məşğul olan briqada ilə görüşdü və evin layihəsini də onlara verib getdi. Amma Tahirin getməsindən bir ay vaxt keçməsinə baxmayaraq, heç bir əlaqəmiz yox idi.*



Sübh tezdən mobil telefonuma gələn zəng məni erkən qalxmağa məcbur etdi.

– Xeyirdir inşallah. Erkən zəng vuran kimdir görəsən? – deyə fikirləşə-fikirləşə telefonu götürüb ekrana baxdım. Tanımadığım nömrədən gələn zəng idi, açdım.

– Axşamınız xeyir, narahat etmədim ki? – deyən dostum Tahiri səsindən tanıdım.





– Hər vaxtın xeyir. Qardaş, haradan zəng vurmusan? Burada axşam yox, sübh tezdəndir.

– Güldü. Rusiyanın Naxodka şəhərindəyəm. Yaponiyadan malımız gəlir. Doğrusu, zamanı da dəyişik salmışam. Unutmuşam ki, burda axşam olanda Naxçıvanda səhər olur. Üzr istəyirəm.

– Narahat olma. Üzr istəməli bir iş yoxdur. Xeyir ola. Nə yaxşı zəng vurmuşdun? – deyə soruşdum.

– Qardaş, məni yola salmağa gələrkən Duzdağın ətəyində ucaldılan sement zavoddan başqa daha hansı zavodları göstərdiniz?

– Əhəng, gips, gips lövhələr və məsaməli beton zavodlarını.

– Hə, elə odur. Onlar çox qiymətli və keyfiyyətli inşaat materiallarıdır. Xahiş edirəm bizim məhəlləyə gedib ata yurdumda tikdirdiyim evə baxarsan. Ustalar mənə zəng vurub dedilər ki, artıq dəmir-beton işləri başa çatıb. Hörgü və suvaq üçün lazım olan inşaat materiallarını birlikdə alın. Özü də binanın daşıyıcı divarları həmin o məsaməli betonla, daxili arakəsmələr isə tuğla kərpici ilə hörülsün. Gips, gips lövhələr də elə həmin zavodun məhsullarından olsun. Allah qismət etsə, payızda gələcəyəm. Özü də Naxodkada yaşayan – gölməçə iyindən burunları tutulan dostlarımla birlikdə. Atalar yaxşı deyib: “Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır”. Qurulub-yaradılanlar haqqında mən çox danışdım. Ancaq baxdım ki, olanları olduğu kimi çatdıra bilmədim. Qoy bunlar da gəlib Naxçıvanın möhtəşəmliyindən zövq alsınlar. Biz gələnə qədər də tikinti işləri yekunlaşar. Elə həyətdəcə sizə gözəl bir ziyafət verərəm.

Güldüm. Nə deyəcəyimi yaxşı bilən Tahir:

– Yox, yox, bu dəfə sözdə yox, əməldə olacaq. Özü də əməlli-başlı, – deyib xudahafizləşdi.

İşdən sonra, axşamçağı Tahirgilin məhəlləsinə getdim. Gənclik dövrümüzün keçdiyi məhəlləni tanımadım. Sıralanan, bir-birindən yaraşıqlı iki-üç mərtəbəli fərdi yaşayış evləri məhəlləyə yeni görkəm verib.

Tahirin ata yurdunda gördüyüm evin yerində isə ucaldılan üçmərtəbəli fərdi yaşayış evində inşaat işləri davam edirdi.

– Yorulmayasınız. Allah qüvvət versin, – dedim.

– Xoş gəlmisiniz, – deyən ortayaşlı bir kişi mənə yaxınlaşıb, – nə lazımdır? – deyə soruşdu.

– Heç. Mən Tahirin dostuyam. Xahiş etdi ki, inşaat materialları alarkən sizə köməklik edəm.

– Qardaş, neçə illərdir ki, bu sənətin çörəyini yeyirik. Əmanətə xəyanət olmaz, – deyiblər. Sahibkar hansı inşaat materialı deyibsə, ondan almışıq. Yaxınlıqdakı “Naxçıvan Sement” kisələrini, örtü yaradılmış anbardakı gips, gips lövhələri, binanın içinə yığılmış məsaməli betonu və tuğla kərpiclərini göstərib – biz vaxt itirə bilmərik. Tikinti mövsümüdür. Başqa sifarişlərimiz də var – dedi.

– Tahir müəllim dedi ki, payızda bu evdə yüngülvarı bir ziyafət verəcək, – deyib ustanın üzünə baxdım.

– Əlbəttə. Ona şübhəniz olmasın. Əvvəlki vaxtlar deyil ki, o döngə sənin, bu döngə mənim deyib hər bir inşaat materialının dalınca on dəfə gedəsən. Get sabah gəl, get birisi gün gəl, narahat olma malımız yoldadır, üç gündən sonra gəl, – deyələr. Gələn inşaat materialları da, necə deyərlər, “od qiymətinə”. İndi başqa zamandır. Topdansatış mağazalarında nə lazımdırsa var. Özü də əsas inşaat materialları yerli istehsaldır. Münasib qiymətinə, keyfiyyətinə də söz ola bilməz. Elə bu işimizdən götürün. Mənzilin sahibinin getdiyi gündən bir ay vaxt ötüb. Demək olar ki, beton-qəlib işləri başa çatıb. Hörgü, suvaq işlərinə başlanılıb. Dam örtüyünün vurulmasına hazırlıq görülüb. Ondan sonra hasar çəkiləcək, həyətdə abadlıq işləri aparılacaq, hovuz tikilib, çardaq qurulacaq. Bina daxilinə gipslə sığal çəkiləcək, gipsdən hazırlanmış müxtəlif füqurlarla bəzək-düzək veriləcək. Bütün bunlar üçün bizə bir ay kifayət edər, – deyən inşaatçı qardaşlarımızla xudahafizləşdik.

Ertəsi gün aparılan abadlıq-quruculuq tədbirlərində öz payı olan, münasib qiyməti, yüksək keyfiyyəti ilə seçilən inşaat materialları istehsal edən müəssisələrdən biri, Duzdağın ətəyində ucaldılan, dörd zavodun bir ünvanı – Naxçıvan Sənaye Kompleksinə yollandıq. Görüşdüyümüz ayrı-ayrı mütəxəssislərin dediklərindən:

– Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanda idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.

Yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən inşaat materialları istehsalı üçün xammal mənbələrinin müəyyən olunması məqsədilə geoloji axtarışlar aparılıb. Yataqlarda lazımi xammal aşkar olunduqdan sonra onun tərkibi Türkiyənin və Çin Xalq Respublikasının bu sahə üzrə ixtisaslaşmış laboratoriyalarında yoxlamadan keçirilib.

Laboratoriyalardan müsbət rəylər alındıqdan sonra qədim Duzdağın ətəyində 2012-ci ildə sement zavodu tikilib istifadəyə verilib, 2014-cü ildə isə digər inşaat materialları istehsal ediləcək yeni zavodların tikintisinə başlanılıb. Yeni layihələrin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq, gips lövhələr, gips, əhəng və məsaməli beton istehsal olunacaq kompleksdə dünyada sement zavodları və onun bazasında digər inşaat materialları istehsal edən müəssisələri qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın “KHO”, “Polysims”, Danimarkanın “Flsm.dth” firmalarını soba, daşqırıcılar və üyüdücülərlə təmin edən Çin Xalq Respublikasının “Jiangsu Pengfei Group Co.LTD” və digər şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb gətirilib. İdxal olunan avadanlıqlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb.

Naxçıvan Sənaye Kompleksinin inşası “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının təcrübəli mütəxəssisləri və inşaatçıları tərəfindən həyata keçirilib. Burada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati və iaşə xidməti binaları tikilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, hazır məhsulun daşınmasına da hərtərəfli şərait yaradılıb.

2015-ci il dekabrın 1-də muxtar respublikamızda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sənaye Kompleksinin açılış mərasimində iştirak edib.

Sənaye kompleksində müasir avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir. İstehsal olunan məhsulların laborator müayinələri aparılır.

Ümumi sahəsi 9 hektar olan kompleksdə ildə 40 min ton gips, 2 milyon kvadratmetr gips lövhələr, 36 min ton əhəng və 150 min ton məsaməli beton istehsal etmək gücünə malik zavodlar fəaliyyət göstərir. Müasir avadanlıqların quraşdırıldığı zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Kompleksin istifadəyə verilməsi ilə muxtar respublikada müvafiq tikinti materiallarına tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunub. Bu zavodların fəaliyyətə başlaması daxili tələbatın ödənilməsi ilə yanaşı, yerli inşaat materiallarının ixracına da imkan yaradır.

Məsaməli beton istehsal edən zavodda yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Burada xammal kimi daş qumundan, əhəng, gips, sement və alüminium tozundan istifadə edilir. İnşaat sektorunda ən çox istifadə edilən bu tikinti materialları istənilən ölçüdə asanlıqla kəsilir, yüksək səviyyədə səs və istilik izolyasiyasına malikdir. Bundan əlavə, yüngül və zəlzələyə davamlı olan bu materiallar yanmaya qarşı beynəlxalq standartlara uyğundur.

Kompleksə daxil olan digər zavodlarda da yüksək şərait yaradılıb. Əhəng zavodunda istifadə olunan yerli xammal Qarabağlar mədənindən gətirilir. Burada hazırlanan məhsullardan inşaat sektorunda, kənd təsərrüfatında, kağız və şüşə istehsalında istifadə edilir.

Gips zavodunda istifadə olunan xammal isə Çalxanqala, Çeşməbasar, Xıncab və Böyükdüz zonalarından gətirilir. Burada istehsal olunan məhsullar məsaməli beton blokların, suvaq və üzləmə gipsinin, gips lövhələrin hazırlanmasında istifadə edilir.

Gips lövhə zavodunda da yüksək şərait yaradılıb. Xammal kimi nişasta, gips, üzləmə kağızı və yapışqandan istifadə olunur. Müəssisədə istehsal olunan məhsullara inşaat sektorunda tələbat böyükdür.

Müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılıb. Kompleksdə istehsal edilən məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, bu yerli inşaat materiallarının xarici bazarlara çıxarılmasına da imkan verir. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihənin reallaşması ilə bu problem aradan qaldırılıb.

*Yeni istehsal müəssisələri əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, müəssisədə çalışan işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.*

✍ **Kərəm HƏSƏNOV**

***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 2016-cı ilin ilk 6 ayı ərzində 2085 hüquqi, 55 min 689 fiziki şəxs olmaqla, 57 min 774 müştəriyə xidmət göstərilib.***

# Cari ilin ilk altı ayında 9 min 654 müştəriyə yeni bank hesabı açılıb

Xidmət göstərilən hesabların 51 min 436-sı işlək hesab olub ki, onların 1381-i hüquqi, 50 min 55-i fiziki şəxsdir.

Bəhs olunan dövrdə 32 hüquqi, 9 min 622 fiziki şəxs olmaqla, 9 min 654 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının hamısı fəaliyyət göstərir.

Əsassız nağd ödənişlərə yol verməmək üçün müəssisə və təşkilatlara qonşu xarici ölkələrdən aldığı mal və avadanlıqların dəyərinin istənilən valyuta növündə köçürülməsi təmin olunub, akkreditiv forması, avans ödənilməklə və digər müqavilə şərtlərinə uyğun olaraq xarici ölkələrə mal və avadanlıqların dəyərinin ödənilməsi üçün 5 milyon 238 min avro, 8 milyon 319 min ABŞ dolları, 15 milyon 85 min rus rublu köçürülüb. 90-180 gün müddətində avadanlıqların alınıb muxtar respublikaya gətirilməsinə nəzarət olunub, gömrük bəyannamələri alınıb.

Məlumatda o da bildirilir ki, muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq və Mərkəzi Bankın ehtiyat fondundan dövriyyəyə buraxılan nağd pul kütləsinin artım tempinin aşağı salınması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilib. Həmin tədbirlər hesabına 2016-cı ilin ilk 6 ayı ərzində bankların kassa mədaxili 196 milyon 952 min manat olub. Bankların kassa mədaxilinin 39 milyon 341 min manatı ticarət müəssisələrindən, 4 milyon 32 min manatı sənaye müəssisələrindən, 3 milyon 502 min manatı tikinti müəssisələri və kooperativləri üzrə daxilolmalardan, 6 milyon 614 min manatı yanacaqdoldurma müəssisələrindən, 6 milyon 418 min manatı nəqliyyat müəssisələrindən, 10 milyon 614 min manatı rabitə müəssisələrindən, 1 milyon 61 min manatı hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən, 4 milyon 419 min manatı vergi və rüsumlardan, 2 milyon 176 min manatı kommunal xidmətlərdən, 12 milyon 663 min manatı pul köçürmələri və fiziki şəxslərin cari hesablarına daxilolmalardan, 11 milyon 832 min manatı əmlak alqı-satqısı ilə əlaqədar notariat kontorlarının hesabına daxilolmalardan, 94 milyon 280 min manatı isə digər daxilolmalar hesabına əldə edilib.

Məlumatda deyilir ki, bankların kassa məxarici 359 milyon 37 min manat olub. Bunun 14 milyon 607 min manatını sənaye müəssisələri, 15 milyon 695 min manatını ticarət müəssisələri, 63 milyon 262 min manatını tikinti müəssisələri və kooperativləri, 12 milyon 573 min manatını nəqliyyat müəssisələri, 596 min manatını rabitə müəssisələri üzrə ödənişlər, 194 milyon 655 min manatını əməkhaqqı, pensiya, müavinət, sığorta və digər sosial ödənişlər, 41 milyon 647 min manatını bankın hüquqi və fiziki şəxslərlə maliyyə əməliyyatları üzrə ödənişlər, 16 milyon 2 min manatını isə digər ödənişlər təşkil edir.

2016-cı ilin birinci yarısında Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 209 milyon 212 min manat nağd pul dövriyyəyə buraxılıb.

**Xəbərlər şöbəsi**

## Dövlət proqramı necə icra olunur?

# Sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiyası üzrə dövlət proqramının icrası uğurla davam etdirilir

***Cəmiyyəti formalaşdıran, inkişaf etdirən əsas amillərdən biri də təhsildir. Güclü ideyaların insan fəaliyyətinin bütün sahələrinə, o cümlədən təhsilə, təlim-tərbiyə prosesinə tətbiqi müasir cəmiyyətin xarakterik xüsusiyyətlərindəndir. Ölkəmizdə həyata keçirilən təhsil siyasətinin başlıca məqsədi də təhsil alanları sağlamdüşüncəli, yüksək bilikli şəxsiyyət və vətəndaş kimi formalaşdırmaq, kamil insan tərbiyə etməkdir. Muxtar respublikamızda hər bir sahədə olduğu kimi, təhsilin inkişafı istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bu sırada xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinə göstərilən diqqət ayrıca qeyd olunmalıdır.***

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş və icrası uğurla başa çatdırılmış "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" uşaqların cəmiyyətə inteqrasiya olunması və təhsil almaları üçün əlverişli mühit yaratmışdır. Bu qəbildən olan uşaqlarla bağlı aparılan işin keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiyası üzrə Dövlət Proqramı"nın qəbul edilməsi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlara qayğının davamlı xarakter aldığının göstəricisidir. Proqramın qəbul edilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarını təmin etmək, onları tam və bərabərhüquqlu şəxsiyyət kimi formalaşdırmaqla özünə inam hissi yaratmaq, tədris prosesində müasir informasiya texnologiyalarından istifadə imkanlarını artırmaq, bu sahə üzrə müvafiq pedaqoji kadrlar hazırlamaqdan ibarətdir. Proqramın icrasını həyata keçirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya yaradılmışdır. Komissiya sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranmış çətinlikləri aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət edilməsi məqsədilə muxtar respublikanın məktəbəqədər, ümumtəhsil, tam orta, məktəbdənkənar təhsil müəssisələrində, uşaq musiqi məktəblərində, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində monitorinqlər aparmışdır. Monitorinqlər zamanı bu qəbildən olan uşaqlarla fərdi qaydada söhbətlər təşkil edilmiş, Naxçıvan Müəllimlər İnstitutu tərəfindən hazırlanmış "Xüsusi qayğıya ehtiyacı olan şagird haqqında məlumat kitabçası"nın işlənmə qaydası yoxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 22 nəfər sağlamlıq imkanları məhdud uşaqların tədrisə cəlb olunması məqsədilə Distant Tədris Mərkəzi yaradılmışdır. Eyni zamanda Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində nitq problemi olan uşaqlar üçün defektoloji bölmə, kinetik və əmək terapiyası, audio və elektron kitabxana xidmətləri fəaliyyətə başlamış, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 5 nəfər görmə qabiliyyəti məhdud olan şəxslərə brayl kurslar təşkil edilmişdir.

Mart ayının 29-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə seminar keçirilmişdir. Seminara muxtar respublikanın ümumtəhsil məktəblərinin psixoloqları cəlb edilmiş, onlara bu qəbildən olan uşaqlarla bağlı görülən işlərə nəzarətin artırılması məqsədilə tövsiyələr verilmişdir. Ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq qabiliyyətinin artırılması üçün müvafiq tədbirlərin görülməsi, onların meyil və maraqlarını nəzərə alaraq musiqi, idman, şahmat məktəblərinə cəlb edilməsi, yuxarı sinif şagirdlərinin peşə maraqlarına uyğun olaraq peşə təhsilinə yönləndirilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Müəllimlər İnstitutunun müəllim-psixoloqları tərəfindən muxtar respublikanın bütün rayonlarında seminarlar keçirilmiş, ibtidai sinif müəllimləri və psixoloqlarla maarifləndirici söhbətlər aparılmışdır.

Eyni zamanda bu qəbildən olan uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə məktəblərdə valideyn, şagird və müəllimlər arasında maarifləndirici tədbirlər həyata keçirilmişdir. Belə ki, cari ildə komissiya tərəfindən proqramın icrasına uyğun olaraq Şərur rayonunun Xanlıqlar, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Keçili, Culfa rayonunun Yaycı kənd 1 nömrəli, Babək rayonunun Nehrəm kənd 2 nömrəli, Naxçıvan şəhər 4 nömrəli tam orta məktəblərində valideynlərlə maarifləndirici söhbətlər aparılmış, bu qəbildən olan uşaqlarla təlim-tərbiyə prosesinin təşkilinə, onlarla ünsiyyət qurma bacarıqlarının formalaşdırılmasına dair məsləhətlər verilmiş, valideynləri maraqlandıran suallar cavablandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində cari il mart ayının 18-də "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi" mövzusunda müşavirə keçirilmişdir. Həmin müşavirədə verilən tapşırıqlara uyğun olaraq, aprel ayının 2-dən iyun ayının 5-dək muxtar respublikanın ümumtəhsil məktəblərinin sınaq imtahanlarında yüksək nəticə göstərən, aztəminatlı ailələrin və sağlamlıq imkanları məhdud uşaqların Ağbulaq İstirahət Mərkəzinə ekskursiyası təşkil edilmişdir. Bu layihənin reallaşdırılması sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikamızın füsunkar və zəngin təbiətə malik olan bölgələrini daha yaxından tanımalarına, asudə vaxtlarının səmərəli təşkil edilməsinə, "Nuh yurdu" intellektual oyunun keçirilməsi şagirdlərin inkişafına, müxtəlif idman yarışlarına cəlb edilmələri onların sağlam ruhda böyüməsinə, Vətənimizin tarixini, mədəniyyətini, adət-ənənələrini özündə əks etdirən filmlərin nümayiş etdirilməsi bu qəbildən olan uşaqların ümumi dünyagörüşünün formalaşmasına öz müsbət təsirini göstərir.

*Proqramın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində sağlamlıq imkanları məhdud uşaqların elektron məlumat bazası yaradılmışdır. Bu qəbildən olan uşaqların ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilməsi, onlar üçün əlverişli təhsil mühitinin yaradılması Təhsil Nazirliyinin diqqət mərkəzində olan əsas məsələlərdəndir.*

**Kamal FƏRƏCOV**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi***

## Naxçıvan tarixindən

# Tarixin səssiz carçıları

*Naxçıvan tarixi ilə bağlı oxuduğum materiallarda tez-tez qarşıma çıxan maraqlı nekropollar diqqətimi o qədər çəkdi ki, bu barədə araşdırmalar aparmağa başladım. Sonra öyrəndiklərimi oxucularla bölüşmək qərarına gəldim.*

***Nekropol nədir?***

Nekropol (Nekropolis) arxeoloji şəhərlərdə qəbiristanlıqların və toplu məzar yerlərinin olduğu əraziyə verilən addır. Əski yunan dilində "nekros" (ölü) və "polis" (şəhər) sözlərindən yaranıb. Antik dövrdəki şəhərlərdə məzar yerlərinin günümüzdəki şəhərlərdən fərqi indiki vaxtda daha çox məskunlaşma yerlərinə uzaqda və şəhərin xaricində olan məzarların o dövrlərdə şəhərlərlə iç-içə olmasıdır.

Arxeoloji tədqiqatlar zamanı Naxçıvan ərazisində Dizə, Qarabulaq, Plovdağ və Xornu nekropolları kimi qəbir abidələri tədqiq edilib. Bundan başqa, Xaraba Gilanda yerləşən Xalı-Keşan, Mərdangöl, Muncuqlutəpə nekropollarının materialları da tarixi dövrlərin xarakteristikasını vermək üçün dəyərli mənbə rolunu oynayır. Quzey, Əbrəqunus, Ləkətağ, Göydərə, Göynük, Ərəzin, Dizə nekropolları və sair kimi neçəsi bu torpağın tarixinin qədimliyindən soraq verir.

Muxtar respublikamızda yerləşən nekropollardan ən maraqlılarının tarixinə və onlar haqqında olan tədqiqatlara diqqət yetirək.

***Naxçıvan nekropolu*** Naxçıvan şəhərinin şimalında Tunc dövrünə aid arxeoloji abidədir. Abidə 1968-ci ildə təsərrüfat işləri aparılan vaxt qəbirlər dağıdılaraq təsadüfən aşkar olunub. Düzbucaqlı formalı qəbirlərin üstü uzunluğu 1, eni 0,5, qalınlığı 0,2-0,3 metr olan daş plitələrlə örtülmüş vəziyyətdə olub. Qəbirlər şimaldan cənuba, həmçinin şimaldan qərbə doğru istiqamətlənib. Skeletlərin qalıqları pis vəziyyətdə olub. Qəbirlərdən birində cənubdan qərbə istiqamətlənərək bükülü vəziyyətdə olan skelet salamat qalıb.

Naxçıvanın Orta və Son Tunc, həmçinin İlk Dəmir dövrü qəbir abidələri üçün kollektiv dəfn adəti səciyyəvidir. Qəbirlərdən zəngin maddi-mədəniyyət nümunələri – boyalı gil qablar, müxtəlif formalı tunc bəzəklər (bilərzik, üzük, sırğa və sair), ayrı-ayrı minerallardan hazırlanmış muncuqlar tapılıb. Gil məmulatı içərisində çəhrayı rəngli, üzəri qara, qəhvəyi, qırmızı və sarı rənglərlə naxışlanmış boyalı qablar xüsusi incə zövqlə hazırlanıb. Naxçıvanın məişət abidələrinin stratiqrafiyasına, həmçinin arxeoloji materialların texnoloji analizinə əsasən, Naxçıvan nekropolu e.ə. II minilliyin ortaları və sonuna aid edilir. Nekropoldan əldə olunmuş materiallar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

***I Naxçıvan nekropolu*** Naxçıvan nekropolu yaxınlığında Antik dövrə aid arxeoloji abidədir. 1970-ci ildə tikinti işləri aparılarkən aşkar edilib. Sahəsi 1,9 hektar olan abidə dağıdılmış altı küp qəbirdən ibarətdir. Abidədən əldə olunmuş materiallar hərbi qulluqçu Peters tərəfindən nömrələnərək Gürcüstan Dövlət Tarix Muzeyinə verilib. Arxeoloji qazıntılar nəticəsində qəbirlərdən çəhrayı rəngdə bişirilmiş gil qablar, üzəri qırmızı boya ilə örtülərək sığallanmış, bəzən isə cilalanmış sadə qablar, boz rəngli gil məmulatı, gümüş və tuncdan hazırlanmış bilərzik, sancaq, üzük və sırğalar, şüşə və əqiq muncuqlar, iki şüşə möhür, Makedoniyalı İskəndərə aid bir ədəd gümüş draxma əldə olunub. Nekropolun tapıntıları e.ə. IV-III əsrlərə aid edilir.

***II Naxçıvan nekropolu*** Naxçıvan-Şahbuz avtomobil yolunun sol tərəfində, hərbi şəhərciyin qurtaracağında yerləşən Antik dövrə aid arxeoloji abidədir. Nekropol 1990-cı ildə tikinti işləri aparılarkən aşkar olunub. Tikinti zamanı küp qəbirlər və onlardan aşkar olunmuş maddi-mədəniyyət nümunələri ziyan çəkib. Abidədə mövcud olan materiallar mütəxəssislər tərəfindən toplanılaraq Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilib. Tapıntılara əsasən, nekropol e.ə. II-I əsrlərə aid edilir.

***Maxta nekropolu*** Şərur rayonunun Maxta kəndinin şimal-şərqində, Naxçıvan-Sədərək avtomobil yolunun sol tərəfində yerləşən Antik dövrə aid arxeoloji abidədir. Nekropola aid küp qəbirlər 1988-ci ildə su hovuzunun yerləşdiyi təpədə aşkar edilib. Küp qəbirlərdən əldə edilən qablardan yalnız birinin (qum qarışığı olmayan gildən hazırlanaraq boz rəngli, hər iki üzdən çəhrayı boya ilə örtülmüş küpətipli qab) sınığı saxlanılıb. Abidənin II-III əsrlərə aid olması ehtimalı irəli sürülsə də, hələ ki ətraflı tədqiq edilməyib.

***Muncuqlutəpə nekropolu*** Ordubad rayonu ərazisində, Plovdağ Tunc dövrü abidəsi ilə Xaraba Gilan orta əsrlər şəhər yeri arasında, Gilançayın qolu olan (yayda quruyan) Xalı-Keşan çayının sağ sahilində, kiçik təpənin üzərində yerləşir. Təpənin üzəri düzdür, quruluşuna və coğrafi mövqeyinə görə sanki süni surətdə yaradılıb. Burada, təqribən, 1600-1700 kvadratmetr sahədə 33 sərdabətipli qəbir kompleksi tədqiq olunub. Qeyd edək ki, tədqiqatçılar Muncuqlutəpə nekropolunun sərdabələrini çoxdəfnli qəbirlərin ən yaxşı nümunələri hesab edirlər. 1 nömrəli sərdabə düzgün olmayan dördbucaqlı planda, cənub-qərb istiqamətindədir. Örtük daşları saxlanmayıb, kameranın ölçüləri 1,4x1,2x0,89 metrdir. Qəbrin şimal-qərb küncündən bir ədəd kiçikhəcmli, çəhrayı gilli, düz oturacaqlı, düz divarlı, ağız hissəsinin bayır tərəfində iki ədəd qarşı-qarşıya şiş çıxıntıları vardır. 2 nömrəli sərdabə tamamilə dağıntıya məruz qaldığından iki ədəd muncuqdan başqa material əldə edilməyib. 3 nömrəli sərdabə düzgün olmayan dördbucaqlı formasındadır. Örtük daşları saxlanmayıb. Ətrafına dördbucaqlı planda daş döşənib, perimetr üzrə ensiz, uzun daşlar düzülüb. Qəbrin cənub divarının qərb tərəfi nisbətən kameranın içərisinə tərəf işlənib. Ona görə də qəbrin qərb tərəfi şərq tərəfindən 40 santimetrə qədər ensizdir. Sərdabənin qərb divarına bir ədəd sal daş dikinə qoyulub, qalan divarları isə üfüqi düzülmüş müxtəlif qalınlıqlı daşlarla işlənib. Mənbələrdən öyrənirik ki, qəbrin içərisi dağıdılıb və qarət olunub. Qəbirdən ucları birləşməyən tunc qolbaq, ucları bir-birinin üzərində olan tunc həlqə, əqiq muncuqlu iki sırğa, səkkiz ədəd əqiqdən, iki ədəd də sürmədən hazırlanmış eninə deşikləri olan muncuq, iki ədəd ağ mərmərdən hazırlanmış muncuq, üzərində üfüqi və şaquli yapma bəzəkləri olan boz və çəhrayı gilli qab fraqmentləri tapılıb.

Qeyd edək ki, Naxçıvan ərazisində daha çox sayda nekropollar mövcuddur. Nekropollar haqqında geniş məlumatı "Naxçıvan Ensiklopediyası", "Naxçıvan tarixi", AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin müəllifi olduğu "Naxçıvan arxeologiyası", "Azərbaycan arxeologiyası" adlı kitablardan əldə edə bilərsiniz.

Mütəxəssislər nekropollar haqda nə deyirlər?

Bu nekropollar haqqında oxuyarkən tarixin səssiz carçıları olan abidələrin əhəmiyyəti nədir? – sualı yarandı beynimdə. Sualımı AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərliyə ünvanladım. Alim bildirdi ki, qəbiristanlıqlar da çox mühüm tarixi abidələrdir. İslamaqədərki qəbiristanlıqlarda qədim insanların həyata keçirdiyi dəfn adətləri, arxeoloji tədqiqatlar zamanı qəbirlərdən əldə olunan maddi-mədəniyyət nümunələri tariximizin bir sıra problemlərinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir. İslamın qəbulu ilə dəfn adətləri sadələşdirildi. Bu dövrdə qəbirlərin üstünə qoyulan başdaşı, sənduqə, daşdan hazırlanmış qoç və qoyun fiquru tipli xatirə abidələri, xüsusilə onların üzərində həkk edilən müxtəlif məzmunlu kitabələr, təsvir və ornamentlər tarixi mənbə kimi öyrənilir. Bu kitabələr keçmişdə yaşamış bir sıra görkəmli şəxsiyyətlərin, o cümlədən dövlət xadimlərinin, alimlərin, sənətkarların adlarının, titullarının, vəfat tarixlərinin, onların yaşadıqları dövrdə cəmiyyətin həyatında tutduqları mövqenin, qəbirlərinin yerinin, mənsub olduqları yaşayış məskənlərinin dövrünün aydınlaşdırılmasında xüsusi rol oynayırlar.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev də nekropollarla bağlı bir çox maraqlı məqamlara aydınlıq gətirib. O, "Azərbaycan arxeologiyası" kitabında yazır: "Qəbir abidələrinin tədqiqi olduqca əhəmiyyətlidir. Naxçıvanın qədim sakinlərinin dünyagörüşü ilə bağlı ən dəyərli materiallar qəbir abidələrinin tədqiqi zamanı aşkar olunmuşdur. Orta Tunc dövrünə aid qəbir abidələrinin tədqiqi bu dövrdə tək, cüt, kollektiv dəfnlərlə xarakterizə edilən torpaq və daş qutu tipli qəbirlərin üstünlük təşkil etdiyini göstərir. Bəzi qəbirlərin üzərində torpaq, ya da daş qarışıq torpaq kurqanlar düzəldilmişdir. Bəzi qəbirlərin ətrafı Qobustan, Nəhəcir və Şahtaxtı nekropolunda olduğu kimi, kromlexlə əhatə edilmiş, bəzilərinin ətrafı isə sal daşlarla dördkünc planda dövrəyə alınmışdır. Qəbirlərin üzərində kurqan düzəldilməsi, ya da kromlexlə əhatə edilməsi Günəşə olan inamla bağlıdır. Orta Tunc dövrünə aid bir qrup qəbirdə insan skeletinə rast gəlinməmişdir. Belə qəbir abidələrinə Kükü, Şahtaxtı, Çalxanqala nekropollarında təsadüf olunur. Kükü nekropolunda tədqiq olunan kurqanların birindən bütöv öküz skeleti aşkar edilmişdir. Şahtaxtı nekropolunda qəbirlərin birindən bütöv at skeleti aşkar olunmuşdur. Qəbirlərdə bütöv heyvan skeletlərinin ortaya çıxması, şübhəsiz ki, qədim insanların o biri dünyaya inamı ilə bağlı olmuşdur. Bu dövrə aid boz rəngli gil qablar üzərində rast gəlinən aypara təsvirləri Azərbaycanda məskunlaşan qədim tayfaların göy cisimlərinə sitayişi ilə bağlıdır".

*Hər daşı-qayası qədim tarixdən xəbər verən Naxçıvan torpağının səssiz carçıları – Naxçıvan nekropollarının pıçıltılarına qulaq asdıq. Bu dəfə tariximiz haqqında gerçəklikləri onlardan öyrəndik.*

**Nərgiz İSMAYILOVA**

## II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib



***İyulun 23-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 2016-2017-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən cari ilin məzunlarının II və III ixtisas qrupları üzrə qəbul imtahanını keçirib.***

İmtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 55 binada aparılıb.

Muxtar respublikada Naxçıvan şəhər 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1430 abituriyent iştirak edib. İmtahana 137 nəzarətçi-müəllim, 10 imtahan rəhbəri cəlb olunub.

İmtahan günündə məktəblərdə olduq, abituriyentlər və onların valideynlərinin təəssüratlarını öyrəndik.

Şərur rayonunun Dərəkəndindən olan Fərmayıl Əhmədov deyir ki, övladı qədər o da həyəcanlıdır. Onu da əlavə edir ki, qızı Gözəl imtahana yaxşı hazırlaşıb. İnanır ki, tələbə adını qazanacaq.

Valideyn ərazidə insanların rahatlığı üçün iaşə xidməti təşkil olunmasından razılıqla danışdı.

Abituriyentlərdən Aygün Hümbətova ilə söhbətləşirik. Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunudur. O, sınaq imtahanlarında 500-700 intervalında bal toplayıb. Həyəcanını gizlətməyərək deyir:

– Həyəcanla gözlədiyim gündür. Hansı sualların düşəcəyini səbirsizliklə gözləyirəm. Xarici dil müəllimi olmaq istəyirəm. Hədəfim 500 balı keçməkdir.

Abituriyentlərdən Rafət Kazımbəyli də çox həyəcanlı görünür. Onun dediklərindən:

– Atam təhsil sahəsində fəaliyyət göstərir. Ailəmizdə təhsilə hər zaman böyük maraq olub. Valideynlərim hər zaman dərsimlə maraqlanıb, mənim yaxşı oxumağım üçün əllərindən gələni əsirgəməyiblər. Təhsil aldığım məktəbdə həm yaradılan şəraiti, həm müəllimlərimizin bizimlə məsuliyyətlə məşğul olmalarını xüsusilə qeyd etməliyəm. Zəngin maddi-texniki bazaya və müasir tədris şəraitinə malik olan məktəbimiz ən müasir informasiya texnologiyaları, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təmin edilib. II ixtisas qrupu üzrə imtahan verəcəyəm. Bu imtahandan uğurlu nəticə qazanmalıyam. İnanıram ki, bütün ümidləri doğruldacağam.

Babək rayon Cəhri kənd 1 nömrəli tam orta məktəbin məzunu Nihad Alməmmədov, Şərur rayon Şahbulaq kənd tam orta məktəbinin məzunu Cəfər Cəfərov da belə düşünürlər.

Saatlar 11$^{00}$-ı göstərəndə imtahan başlayır. İmtahan qurtarana kimi biz də müşahidələrimizi apardıq. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə keçirilən imtahanların gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. Ümumiyyətlə, imtahanda təşkilatçılıq yüksək səviyyədə idi.

... Nəhayət, imtahan başa çatır. İmtahandan yenicə çıxmış Valeh Xudakərimov sualların asan olduğunu dedi. Zaur Məmmədov isə ilk dəqiqələrin onun üçün bir az çətinlik törətdiyini gizlətmədi. Daha bir abituriyent Nuray Salmanlı dedi ki, imtahanda əsas amil olan sakitlik tam təmin edilmişdi. Bu da onun sualları dəqiq cavablandırmasına imkan verib.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdirilib.

**Sara ƏZİMOVA**

## *"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq"* devizi altında idman yarışları

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kişilər və gənclər arasında MMA döyüş növü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev bildiriblər ki, birinciliyin keçirilməsində əsas məqsəd MMA döyüş növünü kişilər və gənclər arasında təbliğ etməklə, onları zərərli vərdişlərdən uzaqlaşdırmaq və federasiya tərkibində fəaliyyət göstərən klubların işini təkmilləşdirməkdir.

Yarışda 7 çəki dərəcəsində 80 idmançı qüvvəsini sınayıb.

Gərgin mübarizə şəraitində keçən döyüşdə Əkbər Əliyev, Nizami Hüseynov, Rüstəm Bağırov, Cəfər Abbasov, Xızır İsmayılov, Fərdi Bağırov, Nəcəfəli Nəcəfov müvafiq olaraq 50, 56, 61, 66, 70, 77, 84 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar təşkilatçıların diplomları ilə təltif ediliblər.

* * *

Şahbuz Rayon Gənclər və İdman İdarəsinin, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının Şahbuz rayon bölməsinin və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin təşkil etdiyi "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yarış başa çatıb. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının Şahbuz rayonunda fəaliyyət göstərən bölməsinin üzvləri arasında keçirilən karate-do üzrə Şahbuz rayon birinciliyi Şahbuzkənd tam orta məktəbinin idman zalında keçirilib.

Yarışda 2004-2008-ci illər təvəllüdlü oğlanlar, 2006-cı il təvəllüdlü qızlar mübarizə aparıblar. Rauf Bağırov, Pünhan Həsənov, Rəşad İmamquliyev, Anar Hüseynov, Məhəmmədəli Sadiqov və Səmra Sadiqova bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülüblər.

Birincilikdə I, II, III yerləri tutmuş idmançılara təşkilatçıların diplomları təqdim olunub.

## İdmançımız ölkə turnirinin qalibi olub

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibətilə Masallı rayonunda uşaqlar və yeniyetmələr arasında cüdo üzrə açıq turnir keçirilib. Turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Məmmədov da iştirak edib. Tatami üzərinə 38 kiloqram çəki dərəcəsində çıxan idmançımız bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb.

Qalib idmançımız diplom və medalla təltif olunub.

**Ceyhun MƏMMƏDOV**

*Həkim məsləhəti*

## İlanın ağına da, qarasına da lənət oxumaqdansa...

### *Yay fəslinin ilan-əqrəb fəsadları*

***İlan çalması muxtar respublikamızda nadir rast gəlinən bir hadisədir. Lakin Naxçıvanın zəngin fauna aləminə zəhərli ilanların da daxil olduğunu nəzərə alsaq, demək olar ki, ilan çalmasından heç birimiz sığortalanmamışıq. Xüsusilə də rayonda yaşayan və ya oraya tez-tez səfər edən, otlaqda gəzməyi xoşlayanlara bu məsləhətlər birbaşa aiddir. Yay aylarında ilan və əqrəblərin fəallaşması, ilan çalması, əqrəb sancması nəticəsində baş verən zəhərlənmələrə təsadüf edilir. Bu sahədə əhalinin maarifləndirilməsi zərurətini nəzərə alaraq Naxçıvan Muxtar Respublika Xəstəxanası Reanimasiya şöbəsinin müdiri, həkim anestezioloq-reanimotoloq Azər Məmmədov ilə həmsöhbət olduq.***

***– Azər həkim, ilan çalması, əqrəb sancmasına, əsasən, hansı yerlərdə rast gəlinir?***

– İlançalma, əqrəbsancmalar hər yerdə rast gəlinən hadisələrdəndir. Lakin kənd yerlərində, xüsusən otlaq, zəmi, qamışlıq, bataqlıq, şoranlıq, meşə, çöllük, daş karxanası və digər sahələrdə belə hallara daha çox rast gəlinir. İlan çalması tarlada işləyərkən və ya təsadüfən ilanın ayaqlanmasından baş verə bilər. Aparılan təmir-tikinti işləri zamanı ilanlarla yanaşı, əqrəblərin də üzə çıxması istisna deyil. Bütövlükdə isə belə halların çoxalması havaların isti keçməsi ilə əlaqədardır. Bu ilin ilk ilan çalması hadisəsi aprelin 21-də baş vermiş, yay mövsümü başlanandan isə Naxçıvan Muxtar Respublika Xəstəxanasına 7 nəfər ilançalma ilə əlaqədar gətirilmiş, onlardan 4 nəfəri ambulator, digərləri isə stasionar şəraitdə müalicə olunmuşdur. Şöbəmizə ötən yarımildə 3 nəfər əqrəb sancması ilə müraciət etmiş və ambulator müalicə almışdır. İlançalma və əqrəbsancmadan ölüm halları baş verməmişdir.

***– Zəhərli ilanlardan hansı daha çox təhlükəlidir?***

– Xəstəxanaya ilançalma ilə gətirilənlər arasında Culfa rayonu üstünlük təşkil edir. Rayonun dağlıq və dağətəyi ərazilərində mövcud olan ilanlar digərlərindən daha çox fəsad verirlər. Bütövlükdə isə ilanlar zəhərinin təsirinə görə fərqlənirlər. Ən təsirli, ölümcül zəhərə görə kobralar öndə durur. Naxçıvanda zəhərli ilanlardan ən geniş yayılanı gürzə hesab olunur. Zəhərli ilanlar qısa, quyruqları yumru və başları üçbucaq şəklində olanlardır. Üzərlərindəki pullar daha kiçik və daha çoxdur. Çox parlaq və canlı rənglərdə olurlar. Dişləmə zamanı qan laxtalanması müddəti artır, həddindən artıq qan itkisi olur. Yanma hissi və ağrı olur. Sinir sisteminə və ürəyə təsir edir. İlan çalması zamanı kəskin ağrı, yuxululuq, hətta qıcolma baş verir. Ağrı bütün bədən boyu yayılaraq bədəni iflic edir. Sonradan serum vurularkən onun növünü dəqiq bilmək üçün ilanın görünüşünü yadda saxlamaq lazımdır.

***– İlan çalmasından sonra hansı əlamətlər müşahidə olunur?***

– İlan çalmasında toxumaların ödemi (şişməsi) və dişlənən yerdə bərk ağrı, başağrısı, hərarətin artması, özündəngetmə halları müşahidə olunur. Zəhər orqanizmə yeridikcə zəhərlənmə əlamətləri tədricən artır.

İlanın sancdığı yerdə güclü ağrı, qızartı, göyərmə və şişkinlik, başgicəllənmə, başağrısı, nəbzin artması, təngnəfəslik, ümumi zəiflik, yuxululuq, ürəkbulanma, qusma, üşütmə baş verir, soyuq tər basır.

***– Təcili yardım gələnə qədər zərərçəkənlə necə davranılmalıdır? İlan çalması, əqrəb sancması nəticəsində baş verən zəhərlənmə hallarında ilkin tibbi xidmət necə təşkil olunmalıdır?***

– Zərərçəkən təcili halda ayaqları bir qədər yuxarı olmaqla uzadılmalı və tam sakitlik təmin olunmalıdır. Zərərçəkən heç bir halda hərəkət etməməlidir. Təcili yardım maşınına qədər onu xərəkdə aparmaq lazımdır.

İmkan olduqda sancmadan sonrakı ilk 10 dəqiqə ərzində yaradan zəhəri sıxıb çıxarmağa çalışmaq lazımdır. Bunun üçün yara sahəsində dəri elə sıxılmalıdır ki, oradan bir neçə damcı maye çıxsın. Sonra yara təmiz su ilə yuyulub yod ilə dezinfeksiya edilməli və üzərinə steril sarğı qoyulmalıdır. Ətraf şişdikdə sarğını bir qədər boşaltmaq lazımdır. Sınıqlarda olduğu kimi, ətrafa şin qoyulur və ya zədələnmiş ətraf sağlam ətrafa bağlanır. Bu yolla zəhərin orqanizmə yayılma sürəti azalır. Sarğının üzərinə zəhərin sorulma sürətini azaltmaq üçün paketə qoyulmuş buz və ya soyuq kompres qoymaq lazımdır.

Zərərçəkənə çox miqdarda maye (çay, su) və ağrıkəsici dərmanlar verilməlidir. Əgər xəstənin vəziyyəti çox ağır deyilsə, onu təcili olaraq maşında xəstəxanaya çatdırmaq lazımdır. Lakin bir çox ağır hallarda xəstənin xəstəxanaya müstəqil surətdə aparılması xeyli təhlükəli ola bilər. Yaxşısı budur ki, zərərçəkəni xəstəxanaya təcili yardım briqadası çatdırsın. Çünki xəstəxanada zərərçəkənə xüsusi zərdab vurulacaq və ya digər müalicə üsulları tövsiyə olunacaqdır.

Vaxtında düzgün tibbi yardımın göstərilmədiyi təqdirdə zərərçəkəndə əvvəlcə həyəcanlılıq, daha sonra isə əzginlik, dərinin avazıması, nəbzin sürətlənməsi, başgicəllənmə, kəskin zəiflik, arterial təzyiqin enməsi, huşun itirilməsi, tənəffüsün və ürək döyünməsinin dayanması ilə müşayiət olunan şok başlaya bilər. İlan çalması zamanı heç bir halda yaranı yandırmaq (isti bir şeylə və sair), bu yerdə dərini kəsmək, zərərçəkənə spirtli içkilər vermək olmaz!

***– Əqrəb, arı, böcək və həşərat sancmalarına da az rast gəlmirik.***

– Bəli, isti günlərdə belə hallar gündəlik həyatımızda müşahidə olunur. Əqrəb sancan adama spirt verilməməli və yara bağlanmamalıdır. Əqrəblər iqlimi quru olan ərazilərdə geniş yayılmışdır. Onlar sərin və nəm olan yerlərdə məskunlaşır. Əqrəb sancması baş vermişsə, həkim gələnə qədər yara yuyulmalı və üzərinə soyuq kompres qoyulmalıdır. Burada ilk şərt həkimə çatdırana qədər əqrəb sancmış nahiyəni tərpətməmək, həmçinin xəstəni hərəkət etməyə qoymamaqdır. Digər tərəfdən, yaranın yuxarı hissəsini dəsmalla bağlamaq və yaraya dəsmala bağlanmış buz parçası qoymaq lazımdır. Belə etdikdə buz orqanizmə zəhərin daxil olması prosesini ləngidir.

***– İlan və əqrəb zəhəri əleyhinə zərdab ehtiyatının yaradılmasına yay aylarında daha çox ehtiyac yaranır. Çalışdığınız xəstəxanada bu sahədə vəziyyət necədir?***

– Mövsümə uyğun olaraq Naxçıvan Muxtar Respublika Xəstəxanasında hər il olduğu kimi, bu il də kifayət qədər ilan və əqrəb zəhəri əleyhinə zərdab ehtiyatı yaradılmışdır. Zərdablar təkcə muxtar respublika xəstəxanasına deyil, bütün rayon mərkəzi xəstəxanalarına, ilan və əqrəb sancmaları daha çox rast gəlinən böyük kəndlərimizin həkim ambulatoriyalarına ehtiyac olan qədər paylanılmışdır. Zərdabların monovalent, polivalent, gürzə əleyhinə növləri vardır. Biz, əsasən, polivalent zərdab növündən istifadə edirik. Zərdabların istifadə qaydasını mənimsəmək üçün əvvəlcədən bu işlə məşğul olan tibb işçilərinə seminarlar keçirilir. Bu zərdablar istifadə olunduqca zərdab ehtiyatı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən vaxtaşırı tənzimlənir. Zərdabların istifadə müddətinə, xüsusi saxlanma şəraitinə daim nəzarət edilir. Bu iş təlimata və günün tələblərinə uyğun şəkildə aparılır.

***– Ehtiyat tədbirləri barədə nə deyə bilərsiniz?***

– Çox təəssüf ki, bəzən yay fəslinin ilan-əqrəb fəsadlarına qarşı ehtiyatlı olmaq əvəzinə ilanın ağına da, qarasına da lənət oxuyuruq. İlanlar adi halda insanlara hücum etməz və onları sancmağa qalxmaz. Qorxduqları halda və ya ayaqlandıqda özlərini müdafiə etmək üçün insanı sancırlar. İlanlar, adətən, insanlara qarşı ilk olaraq aqressivlik göstərmirlər. Bir çox hallarda ilan insana özünü qorumaq məqsədilə hücum edir. Odur ki, təhlükəli sahələrdə, xüsusilə gecələr ehtiyatlı olmalı, rezin materialdan hazırlanmış uzunboğaz çəkmələrdən istifadə etməli, bədənə yapışmayan köynək və şalvar geyinməliyik.

**Müsahibəni apardı:**
**Hüseyn ƏSGƏROV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Ş.Xiyabani küçəsi, ev 17-də yaşamış Həsənova Züleyxa Qulu qızının adına olan 3055 inventar nömrəli texniki pasport və 02/21 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 568